# Bakıda alman memarlığı mədəniyyəti

*XIX əsrin sonlarına doğru Bakınınbaş planının tərtib olunması üzrə komissiya yaradılır və ona rəhbərlik Fon Der Nonneyə tapşırılır. Bakının mövcud planlaşmasına və şəhər təsərrüfatının yerli şərtlərinə yaxından bələd olan fon der Nonne baş planın optimal variantının işlənməsində nəhəng işlər görür və bu sənəd 1898 - ci ildə "Bakı quberniya şəhərinin mövcud və layihələşdirilən vəziyyəti (genişləndirmə və nizamlama tədbirləri ilə bir yerdə) planı" adı ilə təsdiqlənir.*

*N. A. Fon Der Nonne ilə birlikdə XIX əsrin sonu, XX əsrin hüdudlarında Bakının arxitekturasında memarlardan A. Eyxel, A. Edel və P. Ştern də görkəmli yer tuturlar. Təbiidir ki, bütün Avropa ölkələrində tuğyan edən, Yaxın və Orta Şərqə də təsir göstərən eklektika və stilizasiya dövründə onların yaradıcılığı bu təmayüllərin təsiri altında idi. Bakıda vətəndaşlıq hüququ qazanan həmin istiqamətlər memarlıq sənətində yeni təzahürlər sayılırdı. Kimya və formasiya magistri V. Eyxlerin oğlu Adolf Eyxler özündən sonra yaşayış, təhsil habelə ibadət binalarının inşasında silinməz izlər buraxmışdır. O, bulvarın, sahildəki evlərin planlaşdırılmasında, sovet dövründə isə bulvarı bəzəyən pavilyon və oturacaq tikililərinin layihiləşdirilməsində iştirak etmişdir. A. Eyxlerin Bakıdakı işləri müxtəlif üslub təmayüllərini və kompozisiya vasitələrini təmsil edir. Bakının memarlıq iqlimi Avropa klassikasına çəkirdi, ancaq müasir ovqat da duyulurdu. Eyxler üçün klassika anlayışı bu sözün geniş mənasında order sistemi ilə assosiaya edilirdi, çünki o zaman eklektika və stilizasiya Bakıda artıq dərin kök salmışdı. Eyxler daha çox ikimərtəbəli mülklər layihiləşdirir, bu zaman yerli memarlıq ənənələrinə üstünlük verir, sifarişçilərin istəklərini nəzərə alırdı.*

Bakının arxitekturası üçün bina fasadlarının üzlənməsində daş - əhəngdən istifadə mühüm yer tuturdu. Eyxler order sisteminin klassik ənənələrinə sadiq qalmaqla yanaşı, qotika, yaxud yerli - milli və Şərq memarlığı arxitekturası tipli üslubi təzahürlərə də etinasızlıq göstərmirdi. Qotika üslubu özünün müxtəlif təzahür formalarında Bakı binalarının arxitekturasına daxil olur, özünün forma və motivləri ilə order sistemli binalara səciyyəvi dinamizm və ekspressiya verirdi. Bakıda qotika ilk dəfə memar İ. Qoslavskinin yaradıcılığında Vorontsov (Əzizbəyov) küçəsi, 19 - da yerləşən yaşayış binasında meydana çıxmışdı. Azərbaycanda bu üslublu ilk evlər XIX əsrin ikinci yarısında alman icmalarının yaşadığı Gəncə yaxınlığında - Hellennendorf və Annafeldedə alınmışdı. Bunlar Gədəbəy mədənlərinin inzibati binaları idi. İri Gədəbəy sənaye kompleksinin təsərrüfat və mülki obyektlərinin mühəndis - layihəçiləri mədən sahiblərinin Almaniyadan gəlmiş həmyerliləri idilər. Helenendorfda və Annafeldedəki kirxaların, Gədəbəy mədənlərinin əsas binasının roman - qotik üslubda tikilməsi də elə bununla əlaqədardı. Bu üslubun parlaq əks olunduğu ibadət obyektləri mühüm yer tuturdu. Bu binaların sadəlik və ifadəlik , yerin məqsədyönlü seçilməsi obraz həllinin səmərəliliyini fərqləndirirdi. İnzibati və ibadət binalarının qotik üslubda inşa edilməsi Bakının monumental tikintilərində bu üslubun istifadəsində inkişafa təkan verirdi.

Bakıdakı Lüteran kilsəsi (kirxa) 1895 - 97 - ci illərdə alman mənşəli əhalinin təşəbbüsü ilə tikilmiş və 1899 - cu il martın 14 - də xeyir - dua almışdı. Alman bakılılar memar Eyxlerdən tələb edirdilər ki, Helenendorfda tikilmiş kirxanın arxitektur obrazına oxşarlığı saxlasın. O vaxta qədər binaların əsas tiplərinin üslubi sistemi müəyyənləşmişdi: kirxa və kostellər, bir qayda olaraq, qotik üslubda, təhsil müəssisələri və vağzallar italyan renessansı üslubunda, teatr və konsert zalları renessans və barokko üslubunda tikilirdi. Arxitektor Eyxler Bakı kirxasını layihələşdirərkən heç bir memarlıq kompozisiyasını, o cümlədən, Helenendorf kilsəsinin həcm həllini əsas götürməmişdi. Bakı şəraiti üçün Rusiyanın neft paytaxtına layiq olan daha tənətənəli ibadətgah lazım idi. Eyxler sanki kilsəyə ibadətə gələcək almanların arzularını nəzərə alır, lakin özünəməxsus yaradıcı tərzə malik bir şəxs kimi kirxanın arxitekturasını alman qotikasının ən yaxşı nümunələri üzrə qurur. Telefonnaya (28 may) küçəsindəki bu küçə inşaat və bəzəmə işlərinin yüksək keyfiyyəti ilə ətrafdakı tikililər arasında seçilirdi.

XIX - XX əsrlərin hüdudunda Azərbaycanda milli - romantik istiqamət xüsusən, kult binalarında əhəmiyyətli inkişaf tapır. Bakıda bu istiqamət Bakı - Abşeron memarlığının məşhur nümunələrinin, habelə Şərqin məşhur binalarının təsiri güclənirdi. Bakı millioneri Hacıbaba Haşımov Çəmbərəkənd rayonunda özünəməxsus məntəqədə, şəhərin təbii amfiteatrı üzərində möhtəşəm bir məscid tikdirmək istəyəndə memar seçimi yenə Eyxlerin üzərinə düşmüşdü. Bu üçminarəli məscidin memarlıq kompozisiyası yerli ənənələr üzərində həll olunmuşdu. Eyxlerin fikrincə, müsəlman məscidi ilahi funksiyalarına uyğun olaraq qurulmalı idi. Haşımov məscidi də məhz belə bir sənət əsəri idi. Təəccüblü deyildi ki, Eyxler Bakı kirxasının layihələşdirilməsində Marburq ənənəsindən ilhamlanmışdı, bu dəfə isə o, Şərqin məşhur müsəlman memarlarının irsini, o cümlədən, İspaniya islam abidələrinin incəliklərinəcən öyrənmiş və bunlar ona məscidin arxitektura həllinin tapılmasında zəngin material vermişdi.

Alman mənşəli memarlar içərisində İ. Edel yüksək peşəkarlığı ilə xüsusi fərqlənirdi. Onun yaradıcılığı 1886 - 1898 - ci illərə təsadüf edirdi. Sonradan o, Bakı texniki məktəbində dərs demiş, 1924 - cü ildə burada vəfat etmişdir. Marinskaya (R. Rza), Balaxanı (Füzuli),Telefonnaya (28 may), Politseyskaya (Məmmədəliyev) küçələrində onun tikdiyi yaşayış binaları bu gün dəyərli memarlıq abidələri sayılır və Azərbaycan dövləti tərəfindən nəzarətə götürmüşdü.

1891 - ci ildə Bakı varlılarından biri Tiflis memarı P. Şternə Sadovaya (Niyazi) küçəsi 1 ünvanda üçmərtəbəli bina tikilməsini sifariş etmişdi. Bu küçə şəhərin mərkəzini tamamlayan meydandan (indi Azneft meydanı) başlanırdı. Bina tikildikdən sonra meydan da simasını dəyişmişdi. Fassadın işlənilməsi arxitektura həcmini proporsional bölünməsi kapitalist Bakının tikinti və planlaşdırılmasında bu binanın rol və əhəmiyyətini artırırdı. Bu yaşayış binası təkcə memarlıq əsəri olmaqla qalmayıb, həm də Azərbaycan bənnalarının, ilk növbədə məşhur usta Hənifənin yaradıcılığının səviyyəsindən xəbər verirdi. Beləliklə, XIX əsrin simasının dəyişilməsinə nəhəng töhvələr vermişdilər.

Fon der Nonnenin planına tənqidi yanaşmasına baxmayaraq, akademik Ş. Fətullayev etiraf edir ki, "buna baxmayaraq, plan irəliyə doğru iri addım idi. Onun ideyasında müsbət planlaşdırma qərarları dayanırdı. Bütün naqisliklərinə rəğmən, plan şəhərin gələcək layihələşdirmə işləri üçün əsas rolunu oynayırdı."

Şəhər xüsusi konsert - teatr binalarının yoxluğunu kəskinliklə duyurdu. Belə bir şəraitdə H. Z. Tağıyevin ağlına Bakı üçün "əsl teatr binası" tikdirmək fikri gəldi və 1892 - ci ildə o, teatr layihəsini şəhər idarəsinə təqdim etdi. Teatr binasının tikilməsi üçün möhtəşəm buğda anbarının yerini təklif edən Tağıyev alman mənşəli mühəndis - texnoloq Ferdinand Lekmula tapşırdı. Azərbaycanda bir çox mülki tikililərin inşaatı onun adı ilə bağlıdır. Əgər Bakıda Lemkul nə zamansa tikilmiş binanı teatr üçün uyğunlaşdırmalı idisə, Gəncə bir müddətdən sonra onun özü tərəfindən Gəncəçayın sahillərində tikilmiş Forer malikanəsini teatr binasına çevirmişdilər. Ancaq Forer malikanəsinin yarıalman, yarıflaman arxitekturaya malik fasadı qorunub saxlanmışdı. Mümkündür ki, yalnız şəxsi zövq deyil, həm də sifarişçilərin - Gədəbəy sənaye kompleksi sahiblərinin və sahibkarlardan Forer və Qummelin arzuları Lemkolu öz layihələrində roman - qotik üslubdan geniş istifadəyə vadar etmişdi.

Lemkulla əlaqədar Bakı milyonçusu H.Z.Tağıyevi xatırladığım üçün bu koloritli şəxsiyyətin olduqca maraqlı və zəngin tərcümeyi - halından bir hadisəni yada salmaq istərdim. Birinci dünya müharibəsinin başlanması xəbəri Tağıyevlər ailəsinin istirahət etdikləri Almaniyaya, Marenbadendə çatır. Rus səfirin müharibə elan olunacağına dair xəbərdarlığından və Almaniyanı təcili tərk etmək tələbindən sonra Tağıyevin ailəsi berlinə gəlir. Ancaq şəhər həyacanlı idi, vağzal meydanı ağzınacan kükrəyən adamlarla dolmuşdu. Almaniya ərazisində rus təbəələri mexaniki şəkildə əsir vəziyyətinə düşmüşdülər. Tağıyevin qızı xatırladır: "Atamın Berlin bankında 100 min rubl pulu vardı, ancaq ona bircə qəpik də vermək istəmirdilər. Bank müdriyyəti ilə uzun çək - çevirdən sonra bizim xərclərimizin ödənilməsinə razılaşdılar, ancaq pulu ələ verməkdən qətiyyətlə imtina etmədilər. Onda atam Türkiyə səfirliyinə gedərək, vəziyyətin çıxılmazlığını onlara bildirdi. Türk səfiri bizə böyük qayğı göstərərək birbaşa Almaniya kayzeri II Vilhelmlə əlaqəyə girdi. Dedi ki, Rusiyanın ən məşhur adamlarından birinə, maqnat Tağıyevə Vətəninə, Bakıya qayıtmaq üçün kömək göstərməsini xahiş edirəm. II Vilhelm Tağıyevi də, Azərbaycanı da yaxşı tanıyırdı, orada onun xeyli təbəəsi yaşayırdı, Benkendorfun, Simensin şirkətləri çiçəklənir, alman kommersantları, mühəndis və texnikləri fəaliyyət göstərirdi. Kayzerin şəxsi görüşlərinə əsasən bizə gəmi ayrıldı, üstəlik minadan qorunmaq üçün kreyser də verdilər. Biləndə ki, biz ali silkə mənsubuq, polis rəisi inad göstərirdi: "Bir halda ki, aristokratsınız, deməli, sizi, müşaiyət də etmədilirlər. Mənə adamlarınızın siyahısını göstərin." Atama da elə bu lazım idi. O, rus təbəələrindən ibarət 35 nəfərlik siyahı verdi - orada ermənilər də, gürcülər də, yəhudilər də vardı. Müharibə onları Berlində haqlamışdı və bu yolla atam onları əsirlikdən və pis günə düşməkdən xilas etdi."

**Ç.ABDULAYEV,**
*Alman-Azərbaycan cəmiyyətinin sədri, texniki elmlər namizədi*

**Ədəbiyyat:**

1. "Almanlar Azərbaycanda" Ç.Abdullayev, B. Quliyeva, Bakı 1992
2. "Şəhərsalma və Azərbaycan memarlığı". Ş.S. Fətullayev, Leninqrad. 1986.
3. "Almaniya - Azərbaycan əlaqələri". Çingiz Abdullayev, Bakı 2000